

■ Ələmdar Cabbarlı

## ATA, QƏBİRİSTANLIQ YAMAN BÖYÜYÜB

Ata, qəbristanlıq yaman böyüyüb,
Səni dəfn edəndə beş-on məzardı.
Ölüm sudan ucuz, amma məzarın
Üstündə növbədi, giley-güzardı.

Vallah qayğılarım başımdan aşıb,
Sınıq ürəyimi dur bağla görək.
Ata, qəbiristanlıq yaman sıxlaşıb,
Yanında yerimi bərk saxla görək.

Sevincdən qismətim o qədər kəm ki,
Kədər çalışır ki, qəsdimdə olsun.
Qəbrinin səmtində ev tikmişəm ki,
Qoy gözün hər zaman üstümdə olsun.

Ata, qəbristanlıq yaman böyüyüb,
Yaman çoxalıblar, qoşun olublar.
Allah behişt versin - kənd qonşuların
Gəlib şəhərdə də qonşun olublar.

Ruhuna yazmışam bu sətirləri,
Bir az ağı olsun, şeir olsun bir az.
Bir az da ağlayım qəlbim boşalsın,
Qoy təzə dərdlərə yer olsun bir az

## DÜNYANIN PİYAN VAXTIDI

İndi şeytan havasına
Bəndə oynayan vaxtıdı.
Bir qazanda beş-on qoçun
Başı qaynayan vaxtıdı.

Bəşər susayıbdı qana
İnsan toy tutur insana.
İndi bəndənin şeytana
Aldanan, uyan vaxtıdı.

Dünya, əməlini unut,
Ağlatdığın gözü qurut.
Nə vaxt şər iş tutursan - tut,
Tanrıya ayan vaxtıdı.

Uyub sözə-sova getmə,
Düz yol yeri, yava getmə.
Dediyini qaba getmə -
Dünyanın piyan vaxtıdı.

## SƏHRA

Ömrüm...
bom-boz bir səhradı
Axarı yox, baxarı yox.
Elə nə görmüsən odur
Gəliri yox, çıxarı yox.

Dözdüm...
dar gün ötə, gedə
Dünya pisliyin tərgidə.
Məni bişirdi bürküdə.
Buludu yox, yağarı yox.

Düzü, mərdi dandı dünya
Dərdə mərdin yandı, dünya.
Bu nə nərdivandı, dünya
Aşağı var, yuxarı yox.

Kədər ömrümə şələdi,
Sevinc ömrümdə giləd.
Bu düşdüyüm nə çilədi -
Əvvəli var...
axırı yox...

## HƏR GÜN ALDADIRAM ANAMI, ALLAH

Bu axşam gələcək qonağım-qaram,
Bu axşam dərdimin yaşı olacaq.
Hamıdan birinci təbrikə gələn
Gözümün bir gilə yaşı olacaq.

Biz dərddən tutulan səmayıq, göyük,
Sevinci heç yoxdur, kədəri böyük.
Mən hardan biləydim yapışdığım yük -
Dünyanın ən ağır daşı olcaq.

Qaçıb gətirmişəm tək Sənə pənah.
Qoyma gora gertsin mənlə bu günah;
Hər gün aldadıram anamı, Allah
Hər gün deyirəm ki,
yaxşı olacaq...

## BU GÜN ÖZÜMDƏN ÇIXMIŞAM

Bu gün özümdən çıxmışam -
Çıxıb düşmüşəm çöllərə.
Hövsələm özülsüz evmiş
Yıxıb düşmüşəm çöllərə.

Bu gün özümdən çıxmışam
Sapdan çıxan balta kimi.
Bir insan ovutmur məni
Qardaş kimi, ata kimi.

Bu gün özümdən çıxmışam
Bu gün özümdə deyiləm.
Kim məni görsə desin ki,
Qayıtsın gəlsin deyirəm.

## SƏNSİZ ÜŞÜDÜM, KƏLBƏCƏR

Hara getdim, gözlərimdə
Səni daşıdım, Kəlbəcər.
Dərdindən tamam qocaldım,
Oldum yaşıdın, Kəlbəcər.

Gəlmədim -
məni dara çək,
Adımı üzüqara çək.
Orda elə bir nərə çək -
Burda eşidim, Kəlbəcər.

Nə bir dərdindən halıyam,
Nə dərdindən aralıyam...
Arsız aşıq misalıyam -
Elsiz yaşadım, Kəlbəcər...

Bəxtimiz dərd hörgüsündə,
Gözümüz vəd mürgüsündə...
Bakının bu bürküsündə
Sənsiz üşüdüm, Kəlbəcər.

## DAĞLAR

Bircə gün də kövrəlməyə bilmirəm,
Ha deyirəm mətin olum, a dağlar.
Səndən ayrı mən bəxtəvər, bəxtiyar
Çətin olum, çətin olum, a dağlar.

Sən anamsan, dərdin alım, anacan
Elə dedik, heç qıymadıq sənə can.
Qıyma mənə sənsiz qalım sonacan-
Qıyma mənə yetim olum, a dağlar.

Ta ürəyim tab gətirmir ağrıma
Gəlim məni ömürlük bas bağrına.
İnsan olmaq ta çıxıbdı axrıma-
Gülün olum, otun olum, a dağlar.

## DAŞIN DA DİLİNİ MƏMMƏD BİLİRMİŞ...

*(Məmməd Aslana)*

Xızı dağlarına çıxdıq ustadla
Dağ bunu özünə şöhrət bilirmiş.
Bir boy da ucaldı dağın dağlığı
Dağ bunu özünə fürsət bilirmiş.

Ustadın gəlişi gəldi xoşuma
Dağ qoydu özünü dağın başına
Köçürdü Məmmədi daş yaddaşına,
Hər sözün, söhbətin hikmət bilirmiş.

Qartala bənzədi dağın başında,
Bizdən qıvraq idi ahıl yaşında.
Bu yurdu vəsf etdi hər qarışında -
Bu yurdu gülüstan, cənnət bilirmiş.

Bizi bir zirvənin qaşına çəkdi,
Əlin hər otuna daşına çəkdi.
Buz kimi bulağı başına çəkdi
Suyun bal bilirmiş, şərbət bilirmiş.

Kəlbəcər deyəndə gözləri doldu,
Gördüm ürəyinin ağrısı boldu.
Düşdü önümüzə bələdçi oldu -
Yurdu oba-oba, kənd-kənd bilirmiş.

Gah Qurandan dedi, təfsirdən dedi,
Həm aşkardan dedi, həm sirdən dedi.
Ələsgərdən dedi, Şəmşirdən dedi
Söz-söz, misra-misra, bənd-bənd bilirmiş.

Dağlara üz tutdu, xiffət elədi,
Hər otnan, çiçəknən ülfət elədi.
Yanımda bir daşnan söhbət elədi -
Daşın da dilini Məmməd bilirmiş...

## SAĞLIQ OLSUN

Əvvəl-axır ölərik,
Ölərik...
sağlıq olsun...
Allahım, hüzuruna
Gələrik, sağlıq olsun.

Bitər bu uzun sürgün,
Gəlib yetişər sirr gün.
Ölüm nə imiş...
bir gün,
Bilərik, sağlıq olsun.

Göndərər Allah günü,
Qara günü, ağ günü.
Mömin olsaq haqq günü
Gülərik, sağlıq olsun.

## DƏYMƏDİM XƏTRİNƏ...

Sifəti tanışdı, üzü tanışdı,
Bu qız zəmanənin öz uşağıdı.
Məni görən gündən yalan danışdı
Dedi inanacaq, söz uşağıdı.

Üzdü işvə məni, üzdü naz məni,
Bu yollarda az gözlətdir, az məni.
Dedi kənddən gəlib, anlamaz məni
Dərə uşağıdı, düz uşağıdı.

Düşündü atmağa nə var ki bunu.
Özgəyə satmağa nə var ki bunu.
Dedi aldatmağa nə var ki bunu -
Əyri zəmanənin düz uşağıdı.

Bitib yollarında qala bilərdim,
Yarı öz günümə sala bilərdim.
Mən ondan intiqam ala bilərdim -
Dəymədim xətrinə -
qız uşağıdı...

## SAÇLARINDAN BİR TEL GÖNDƏR...

Fürsət ver, sənə bir şeir
Yazım - özümü öldürüm.
Saçlarından bir tel göndər -
Asım özümü öldürüm.

Yox daha könlümün tabı,
Bağlandı ömrün kitabı.
Bu dünyayla haqq-hesabı -
Kəsim özümü öldürüm;
Saçlarından bir tel göndər -
Asım özümü öldürüm.

Arzularım kəm, yarımçıq,
Taleyimə qəm qarışıb.
İnsanlardan sən qarışıq -
Küsüm, özümü öldürüm;
Saçlarından bir tel yolla -
Asım özümü öldürüm.

## SONET

Mən belə ayrılıq eşitməmişəm,
Zülm görməmişəm bu zülm kimi.
Düşündüm bir anlıq keçdi gözümdən
Bu qara sevdamız bir film kimi.

Həmişə yanıbdı ürəkdən sevən
Vüsal da duyğusuz kəslərin olub.
Sən heç vaxt ağlınla iş görməmisən,
Baş rolda həmişə hisslərin olub.

Filmdə yazılan titrlərə bax
Qara haşiyəyə alınıb adım.
Mən niyə günahsız ölmüşəm, Allah,
Niyə gözlərimdə qalıb muradım?..

Sən də inadından gəl bir yol əl çək
Bəlkə, rejissorun səhvin düzəldək?